Ədəbiyyat qəzeti

# Əhməd Səlcuq İlkan



**_Burax yaxamı, ey həyat,_**
**_Gözləmə əyilim, təslim olum,_**
**_Mənim ruhumda asilik var..._**

## DAŞ ÇIXDI SEVDİYİM QƏLBLƏR

**Əhməd Səlcuq İlkan 1955-ci ildə Adanada anadan olub. Liseyi bitirdikdən sonra Almaniyaya yollanıb və təhsilini Berlin Texniki Universitetinin memarlıq fakültəsində davam etdirib.**

**1976-cı ildə Türkiyəyə dönən Əhməd Səlcuq İlkan İstanbul Universitetinin alman dili və ədəbiyyatı bölümünə daxil olub. O, memar olmaqla yanaşı, bir sıra gözəl şeirlərin və minə qədər mahnı mətninin də müəllifidir.**

**Kitabları dəfələrlə "Altun qələm" mükafatına layiq görülüb.**

### SƏN VURDUN DA MƏN ÖLMƏDİM

Səhrada su,
həbsxanada gün işığı,
iftarda çörək kimi
gözlədim səni.
Aramızda qadağalardan
divarlar hördün -
buludlara dirənən,
Aya, ulduza dirənən,
göy qübbəsinə dirənən...
Amma önümü kəsməz bunlar -
Sən çağırdın da mən gəlmədim?

Sən varkən
darılmazdım çiçəksiz baharlara,
Sən varkən darılmazdım
yağışlı havalara,
sıxıntılı axşamlara.
Sən varkən
baxıb-baxıb kədərlənməzdim
qatarsız vağzallara,
avtobussuz dayanacaqlara...

Sən varkən
ayrılan aşiqlərin halını anlamazdım.
Gedən niyə gedərdi - anlamazdım,
Qalan niyə qalardı - anlamazdım.
Anlamazdım, anlamazdım, anlamazdım.

Sən varkən
belə üşüməzdim,
Sən varkən
hələ ölməyi heç düşünməzdim...
İndi soruşuram səndən
Adı sevdadırsa
bu cəhənnəm əzabının -
Sən yandırdın da mən yanmadım?

Yayın qızmar günlərində
qar oldum, yağdım ovuçlarına,
olmadı.
Sevdim olmadı, yandım olmadı.
Bilirəm gedəcəksən...
Amma arxanda
Ağlayan bir cüt göz,
Paramparça bir ürək
Və yıxılmış bir dağ
görmək istəmirsənsə,
Çək silahını - daya alnıma,
Titrəmək - filan yox...
Sən vurdun da mən ölmədim?

### GÜL

Gülləri sevərdi ən çox,
Güldümü, güllər açardı
gül üzündə.
Güllərlə bölüşərdi yalnızlığını,
Həp gül umardı sevdiyindən.
Gül ətrini
və bir də gül mürəbbəsini
xoşlayardı,
Nə güllər becərərdi
həyatın tikanlarından
göz yaşlarıyla,
Nə güllər qurudardı
ömür vərəqlərinin arasında...
Bütün sirlərini, sadəcə,
güllərə danışardı.
Nə zaman
bir haqsızlıq görsəydi dünyada
gül kimi saralıb-solardı.

Güllərə baxa-baxa
uzun-uzadı xəyallara dalardı,
İllah da, sevdiyi türküləri dinləyəndə...
Gülləri sevərdi ən çox,
Adı da Gül idi...
Bir axşam
ölümə qoşulub getdi...
Bir axşam
əcələ qoşulub getdi...
"Ana" deyə-deyə qaldım
gözləri yaşlı
güllərin arasında.

### ALLAH QƏHR ETSİN

Mən bu hala düşəcək
adammıydım?
Qar yağdı güvəndiyim dağlara,
Həp boş çıxdı tutduğum əllər,
Həp daş çıxdı sevdiyim qəlblər,
Həp alnından vuruldu ümidlərim,
Həp dəlik-deşik oldu ürəyim.
İştə, bu üzdən ıpıslaqdı baxışlarım,
İştə, bu üzdən yumruq-yumruqdu
əllərim,
İştə, bu üzdən belə çatıqdır qaşlarım -
Allah qəhr etsin...

Yox, bu belə getməyəcək,
Madam ki, bəyənmədin,
Bir sabah
bir dilənçinin ovcuna
qoyacağam ürəyimi,
Götürüb aparsın,
bəlkə bir işinə yaradı.
Kim nə deyər, qoy desin,
Qoyacağam ovcuna ürəyimi bir dilənçinin -
Allah qəhr etsin...

Bir vaxtlar
gəzdiyimiz yerlərdə dolaşıram,
Sanki indicə qarşıma çıxacaqsan,
Sanki dayanacaqda
məni gözləyirsən,
Dünən birinə rast gəldim;
Saçları - sən,
Gözləri - sən,
Qaşları - sən...
Düşdüm arxasınca,
Elə bildi dəliyəm, -
Allah qəhr etsin!..

Dünya alov içində,
Savaşlar baş alıb gedir...
Afrikada çocuqlar
aclıqdan ölür,
Mən isə, burada, sənsizlikdən -
Allah qəhr etsin.

Güldanımda
həp sənin sevdiyin çiçəklər,
Dodaqlarımda
həp sənin sevdiyin türkülər,
Sənin ad gününü

kutladım səndən xəbərsiz
və hər səhər
dualar oxudum
xoşbəxtliyin üçün.

Hara getsəm,
əcəl kimi
arxamca gəlirsən -
Allah qəhr etsin...

İştə, belə bir sevdadı mənimki,
Gəlib çatmış sonum.
Ən qorxunc uçurumlardanmı
atım özümü,
Ən dərin dənizlərdəmi qərq olum,
Amma qəlbimdə sən varsan...
Birdən sənə bir şey olarsa...
Allah qəhr etsin!..

## MƏNİM RUHUMDA ASİLİK VAR

Mən atəşlərə türkü söylərəm,
Ürək yanğılarına - şeir...
Kim bilir, yalqızların acısını
Mənim qədər kim bilir?

Bir irmaq necə ağlar,
Bir günəş
nə zaman üşüyər,
Bir ruzgar niyə susar,
Bir dəniz necə quruyar
Mən bilirəm, mən bilirəm.

Bir türkümlə yuxuların qaçar,
Bir şerimlə divarların uçar,
Üstümə gəlmə, ey həyat,
Üstümə gəlmə,
Alacağam,
səndə alacaqlarım var...

Torpaq günəşin dilini bilir,
Ağac - yağışın,
Çörək - odun,
Çiçək - ruzgarın,
Mən - sevdaların,
istər ağı olsun, istər qarası.
Hara baxsam -
daş ürək,
daş qapı,
daş divar...
Burax yaxamı, ey həyat,
Gözləmə əyilim, təslim olum,
Mənim ruhumda asilik var...

## ALMİRA

İndi eyni şəhərdə olsaydıq.
səninlə, Almira,
Yenə eyni küçələrdə
birlikdə addımlasaydıq
və adımızı yazsaydıq
görüşdüyümüz dayanacaqlara,
və unutsaydıq bütün ümidsizlükləri,
bütün yasaqları,
bütün günahları,
Yenidən başlasaydıq hər şeyi...

İndi eyni məktəbdə
oxusaydıq səninlə, Almira,
Eyni sinifdə, eyni skamyada
otursaydıq yan-yana,
Birlikdə açsaydıq
qırmızı cildli kitabları...
Və soruşsaydıq bir-birimizdən:
necə olur ki, əbədi eşq?

Yenə eyni kafedə
otursaydıq səninlə,
Yenə eyni küncdə,
eyni masada.
Yenə xəyallar qursaydıq səninlə
Dağlar kimi, sıra-sıra,
Və yenidən yaratsaydıq
öz dünyamızı,
Meydan oxuyub ayrılıqlara,
Həsrətlərə, yalanlara
Və yenidən söyləsəydik türkümüzü!

Bir düşün:
kim atdı bizi
peşmanlıqlar dənizinə?
Qərq oldu
sevda gəmimiz
boz-bulanıq sularda.
Təkcə ikimizə
yer olmadı, Almira,
təkcə ikimizə,
bu ucsuz-bucaqsız Yer kürəsində...

## YAĞIŞ

Yenə çisil-çisil yağış yağır,
Sən yağırsan.
Yuxularım yağır
o ipək saçlarına
sovrula-sovrula.
Dəniz mavisi gözlərin
yağır gözlərimə
bu axşam, dəli-dəli.
Xatirələrim yağır bir-bir...
Yerə düşən hər damla
Qəlbim kimi parçalanır.
Yenə çisil-çisil yağış yağır,
Ceyran qarası
baxışların yağır
gözlərimə bu axşam,
süzülə-süzülə.
İlıq-ilıq.



sən süzülürsən
yanaqlarımdan aşağı.
Bir sən yağırsan, üsul-üsul,
Bir mən ağlayıram, səssiz-səssiz.
Ay işığı gözlərinin
kölgəsi düşür ağlıma,
Ələ ala bilmirəm özümü,
qəhr oluram,
qəhr oluram!

Buludlar ağlamadı yerə
Sənə ağladığım qədər.
Yanmadı heç bir ocaq
Sənə yandığım qədər.

Yenə çisil-çisil yağış yağır,
Yenə hüzn, yenə dərd...
Yenə gözlərin
yağır gözlərimə
bu axşam damla-damla.
İncə-incə
sən süzülürsən yanaqlarımdan.

Bir an unutmaq istəyirəm səni,
Şimşək kimi çaxırsan ağlımda.
İplik-iplik olmuş
Göy üzündə buludlar,
Yağır, yağır,
elə hey yağır yağış!

Üşüyürəm!

Mən heç üşüyərəmmi
yağan yağışda?
Sən əlimi buraxmasan!
Mən heç qorxarammı
qaranlıqda?
Sənsiz, sənsiz qalmasam!
Mən heç islanarammı?
Tənhalığın yağışları yağmasa.

Yenə çisil-çisil yağış yağır.

## MƏN BU KÖYÜN DƏLİSİYƏM

Tanıyan belə tanısın,
Mən bu köyün dəlisiyəm.
Ağıl-irfan sizdə qalsın,
Mən bu köyün dəlisiyəm.

Bu acılar bitənədək,
Ağlayanlar gülənədək,
Can dediyim ölənədək
Mən bu köyün dəlisiyəm.

Səsi çıxmaz qırıq sazın,
Dadı olmaz gülsüz yazın,
Başdaşıma belə yazın:
"Mən bu köyün dəlisiyəm".

Mənim yolum eşqin yolu,
Mənim yolum haqqın yolu,
Bir tək dərdim Anadolu -
Mən bu köyün dəlisiyəm.

## BİR YERDƏN SONRA

Bir-birinin ardınca
gəlirsə mutsuzluqlar,
Bıçaq kimi qəlbinə
saplanırsa acılar,
Dörd yanını
tutmuşsa ümidsizliklər,
Və uçurumun başından...
atacaqsa özünü
eşqin son türküsü -
Ayrılıq gözəldir...

Ən qələbəlik yerdə
böyüyürsə kimsəsizliyin,
Minlərcə qəhqəhəyə
qarışırsa gözyaşların,
Daha tükənmişsə yorğun səbrin,
Nəmli kirpiklərində
can verirsə xəyalların
Və dilinin ucundadırsa
indiyəcən heç demədiyin küfrlər -
Yalnızlıq gözəldir...

Güvəndiyin ürəklərə qar yağmışsa,
Buz tutmuşsa
o odlu-alovlu baxışlar,
Yanğınlar içində üşüyürsənsə,
Doğrudan da
dəlilikdirsə çox sevmək...
Belə dünya nəyə gərək -
Ölmək gözəldir...

## AĞLADIM

Dün gecə uzun-uzun
Səni andım, ağladım.
Sonudurmu yolumuzun,
Yandım, yandım, ağladım.

Kim bilir acımızı,
Bu gizli eşqimizi,
Ən əski şərqimizi
Çaldım, çaldım, ağladım.

Bir ümid yox şəfəqdə,
Donduın qarda, sazaqda,
Səni səndən uzaqda
Sardım, sardım, ağladım.

*Hazırladı:*
**DİLSUZ**

